zamanı ona əsaslanırlar ki, buzovun südə olan gündəlik tələbatı təxminən onun çəkisinin 1/6-nə bərabərdir.

4-6- həftəlikdən başlayaraq buzovları üzlü süddən tərgitmək lazımdır. Üzlü südün üzsüz südlə əvəz olunmasını tədricən aparmaq lazımdır, əks halda buzovda ishal əmələ gəlir. Hər 2-3 gündən bir 1 litr üzlü südü üzsüz südlə əvəz etmək olar. Yadda saxlamaq lazımdır ki, süd yemləri təzə, təmiz və içirtmənin birinci ayında 35-37°C, ikincidə 30-35°C, sonrakı aylarda isə 20-25°C temperaturda olmalıdır. İçməli suyun temperaturu təzə südün temperaturuna müvafiq gəlməlidir. İkinci aydan başlayaraq buzovları yaxşı keyfiyyətli çiy su ilə suvarırlar.

**Üzsüz südü 3-4-aylıq yaşa qədər içirdirlər. 4-aylıqdan başlayaraq buzovlara çiy su ilə horra vermək olar.** Horranın hazırlanmasından ötrü zərdab, ayran və üzsüz süddən və ələnməmiş vələmir unundan istifadə edirlər. Horra ilə eyni vaxtda buzovlara hər gün 0,5 kq vələmir və doyunca yaxşı, yumşaq quru ot vermək lazımdır.

**Buzovlar üçün yer geniş, quru və işıqlı olmalıdır. Buzovları qaranlıq binalarda saxladıqda onlar vəhşi böyüyürlər. Binalarda temperaturu 15°C səviyyəsində saxlamaq lazımdır, sonra 20-günlük yaşınadək 18°C-dən aşağı olmamalıdır.** 20-günlük yaşdan başlayaraq buzovlar hər gün gəzintiyə buraxılmalıdır. Havada olma müddəti əvvəlcə 10-15 dəqiqəyə, sonra tədricən artırılaraq, gündə 2-4 saata çatdırılmalıdır. 2-aylıq yaşdan başlayaraq buzovları quru sahələrdə otarmaq məsləhət görülür. Yay dövründə 4-aylıqdan yuxarı yaşda olan buzovlar üçün əsas yem otlaq otudur. Onlara əlavə olaraq quru ot və bir dəfə vələmir unu qarışdırılmış horra verilməlidir.

**Süd tullantıları olmayan təsərrüfatlarda, buzovları süd dövründə bəsləmək olduqca çətindir. Belə təsərrüfatlarda buzovlara 1-1,5 ay üzlü süd içirirlər, sonra onları yavaş-yavaş ələnmiş vələmir unundan hazırlanmış horraya keçirirlər.** Hər buzova 0,4 kq vələmir unu verirlər. Horradan başqa, buzovlara vələmir, quru ot və kökümeyvəlilər verilir. Doğulandan 6-aylığına qədər buzovların normal bəslənməsindən ötrü 250 kq üzlü süd, 550 - üzsüz süd, 150 - qüvvəli yemlər, 290 -kökümeyvəlilər, 260 - quru ot, 280 - silos, 2,6 - xörək duzu və 2 kq sümük unu (yaxud onun əvəzedicisi) tələb olunur. Yay dövründə quru ot, silos və kökümeyvəlilər yaşıl yemlərlə əvəz edilir.

**Niftulla Əzizov,**
*zootexnik*

---

İkinci Kənd Təsərrüfatının İnkişafı və Kreditləşdirilməsi Layihəsi

“Masallı Regional Məsləhət Mərkəzinin fəaliyyəti”

Layihə
Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi tərəfindən maliyyələşdirilir.

İcraçı: Aqro-Məsləhət Qeyri Hökumət Təşkilatı

Ünvan: Bakı, C.Cabbarlı 40.
Tel/faks 498188, 5967018.

“Kösər” mətbəəsində çap olunmuşdur. Sayı 5000.

# İnəklərin süd məhsuldarlığını necə artırmaq olar? (I)



Bakı-2010

Yüksək məhsuldarlığa malik inək laktasiya dövründə, yağlılığı və zülallılığı yuxarı olan çoxlu süd verir. Təsərrüfatlarda onun yem bazası nəzərə alınmaqla hər 100 kq diri çəkiyə laktasiya ərzində 1-1,2 min kq süd verə bilən cins inəklər saxlanması məqsədə uyğundur. Bu o deməkdir ki, 6 min kq-dan yuxarı süd verən məhsuldar inəklər əldə etmək üçün onları elə bəsləmək lazımdır ki, 4-5 yaşlarında hər birinin diri çəkisi 550-600 kq səviyyəsində olsun. Müəyyən edilmişdir ki, inəklərin süd məhsuldarlığı ilə onların diri çəkisi arasında sıx əlaqə var. Bu əlaqə 700 kq-a qədər davam edir. İnəklərin diri çəkisinin sonrakı artımı süd məhsuldarlığını yüksəltmir.

**Süd qanla yelinə daxil olan maddələrdən əmələ gəlir.** Çoxlu miqdarda qanın emal olunmasının öhdəsindən gələ bilən inəyin gövdəsi yaxşı inkişaflı, yelini iri, mütənasib, kasavarı yaxud vannavarı formalı, ayaqları möhkəm, düzgün quruluşlu olmalıdır.

**Döş qəfəsinin ölçülərinə görə ağ ciyərlərin həcmi və tənəffüs sisteminin inkişafı barədə fikir söyləmək olur. Böyük, lakin salaq olmayan qarına malik inəklər daha çox bitki mənşəli həcmli yemlərdən istifadə etmək qabiliyyətinə malikdir.** Bunun hesabına onlardan daha ucuz süd əldə etmək mümkündür ki, bu da iqtisadi nöqteyi-nəzərdən vacibdir. Şübhəsiz, məhsuldar inəkdə yaxşı inkişaflı, vəzili-toxumaları vəzli toxumalı, irihəcmli yelin olmalıdır. Belə yelin ətli yelindən fərqli olaraq, sağımdan sonra, çoxlu qırışlar yaradaraq güclü sürətdə çəkilir. Kasavarı yaxud vannavarı formalı mütənasib yelinli inəklər mastit xəstəliyinə daha tez tutulur və maşınla sağıma daha yararlıdır. **Ağırçəkili məhsuldar inəklərdə, möhkəm, nöqsansız qabaq və xüsusilə də dal ayaqlar olmalıdır, əsas yük dal ayaqlara düşür.**

**Belə inəklər, otlaq yemlərindən daha yaxşı istifadə edə bilir. Onlar zəif ayaqlara malik yaşıdlarına nisbətən daha uzunömürlü olur.**

**«Çox süd» nədən asılıdır?** İnəklərin süd məhsuldarlığı (südün miqdarı, süddə yağın və zülalın miqdarı) irsi əlamətlərin və xarici mühit amillərinin təsiri altında formalaşır. Lakin bilinməlidir ki, inəklərin süd məhsulunun yalnız 20-30%-i heyvanların irsi keyfiyyətlərindən, 70-80%-i isə saxlama və yemləmə şəraitlərindən asılıdır. **Təsadüfi deyil ki, xalq arasında deyilir: «süd inəyin ağzındadır». Deməli, inəklərin süd məhsuldarlığını formalaşdırmaq olar və lazımdır. Bundan ötrü nə və necə etmək lazımdır?**

Əvvəlcə, yaxşı valideynlərdən dişi buzov əldə edilməsinin qayğısına qalmaq lazımdır. Əgər ana özünüzünküdürsə, sizin seçim imkanınız yoxdursa, onda ata təmiz cinsli və yüksək sinifli olmalıdır. Belə buğalar süni mayalandırma stansiyalarında olur. İnəyinizin belə buğaların birinin toxumu ilə süni mayalandırılması yolu ilə yaxşı genetikalı dişi buzov əldə etmək olar. İşin növbəti mərhələsi buzovların səmərəli yetişdirilməsindən ibarətdir. Bu üsul çoxlu miqdarda ucuz bitki yemlərinin yedizdirilməsinə əsaslanmalıdır. Belə yemləmə orqanizmin yaxşı inkişafını təmin edir və nəticədə buzov öz valideynlərindən aldığı irsi əlamətləri tam həyata keçirə bilir.

**Ən çətin zaman. Buzovların yetişdirilməsinin ən məsuliyyətli dövrü doğulduqdan 4-6 aylığı qədərdir (süd dövrü). Yeni doğulmuş buzovun ilk yemi ana südüdür (ağız südü). Onda orqanizmə lazım olan bütün qida maddələri vardır.** Buzov doğulandan 1,0-1,5 saat sonra ona ağız südü içirilməlidir. Buzovun həyatının ilk günündə ona 1,5 kq-dan artıq bir dəfəyə süd içizdirmək olmaz. Əks halda süd həzm olunmamış şəkildə bağırsaqlara keçər və həzm prosesini poza bilər. Belə olmasın deyə, ilk 1-2 gündə süd az paylarla, lakin tez-tez verilməlidir. Sonrakı günlərdə süd verilməsini tədricən artırırlar. Ana südünü buzovlara ən azı 10 gün içirirlər. Kifayət qədər möhkəmlənməmiş körpələrə ana südü ilə yemləndirmə daha uzunmüddətli olmalıdır. Buzovlara beşgünlük yaşından başlayaraq təmiz, qaynadılmış və 20-25°C-yə dək soyudulmuş suyu doyunca vermək xeyirlidir.

**10-12-günlük yaşdan sonra körpələrdən ötrü, əgər onlar analarından ayrı saxlanılırsa, gövdə səviyyəsinin hündürlüyündə yaxşı taxıl otu dəstələri asırlar. Anadangəlmə refleksin təsiri altında onlar bu otu yeməyə tez öyrəşir. 20-25-günlük yaşdan sonra buzovlara daima yaxşı yumşaq quru ot verilir.**

Südün içirilməsində 2 üsuldan istifadə olunur: buzov ya anasını əmir, yada südü əmizikdən içir. Ümumiyyətlə, yadda saxlamaq lazımdır ki, buzovu az içirmək daha yaxşıdır. Ortaçəkili buzovlara gündə təxminən aşağıdakı miqdarda süd içirtmək məsləhətdir: birinci həftədə 3,5 - 4,5 litr, ikincidə 5-6, üçüncüdə 7-9 litr. Süd dövründə yemləmənin normalaşdırılması